**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№362/4** **28 dekabr 2023-cü il**

**Auditorlar Palatasında 2023-cü il ərzində keçirilmiş tədbirlərdə (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) Palata üzvlərinin iştirakının monitorinqi barədə**

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 7.7-ci “Palatada fəaliyyət göstərən “Dəyirmi masa”, təşkil olunan seminar, konfrans və s. tədbirlərdə Palatanın üzvlərinin iştirakının monitorinqi” bəndinə və Palata sədrinin “Auditorlar Palatasında keçiriləcək tədbirlərin (konfranslar, simpoziumlar, “dəyirmi masa”lar, seminarlar, ustad dərsləri və s.) təşkili və təşviqi barədə” 2022-ci il 12 yanvar tarixli 1/2 nömrəli Sərəncamının 5-ci bəndinə uyğun olaraq Palatanın Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən təqdim edilmiş arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasında 2023-cü il ərzində keçirilmiş tədbirlərdə (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) Palata üzvlərinin iştirakının monitorinqinə dair Arayış nəzərə alınsın (əlavə olunur).
2. Auditorlar Palatasında 2023-cü il ərzində keçirilmiş tədbirlərin (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) təşkilində və keçirilməsində fəal iştirak etmiş Palatanın əməkdaşlarının (Q.Bayramov, F.Kamalova, Z.Almazov) işləri müsbət qiymətləndirilsin.
3. Auditorlar Palatasında 2023-cü il ərzində keçirilmiş tədbirlərdə (“dəyirmi masa”lar, seminarlar və ustad dərsləri) məruzəçi qismində iştirak edən Palatanın əməkdaşlarına və üzvlərinə (A.Cəfərov, E.İbrahimov, Q.Əhmədov, N.Niftəliyev, N.Talıbov, S.Vəlizadə, V.Rəhimov) təşəkkür elan edilsin.
4. Auditorlar Palatasında 2023-cü il ərzində keçirilmiş tədbirlərdə müntəzəm iştirak edən adları aşağıda qeyd olunan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara təşəkkür elan edilsin:

- “ACCEPT-AUDİT” MMC (direktor – Əli Tarverdiyev);
- “BKR Consulting” MMC (direktor – Elçin Əliyev);
- “BKR İŞIK Konsaltinq” MMC (direktor – Aysel Şahtaxtinskaya);
- “Ekol Audit” MMC (direktor – Elçin Qulizadə);
- “FCHAİN AUDİT” MMC (direktor – Valid Hüseynov);
- “L.B. Audit Xidməti” MMC (direktor – Lamiyə Bayramova);
- “Modern Audit Servis” MMC (direktor – Ramal Mehdizadə);
- “Professional Financial Experts” MMC (direktor – Rəşad Həsənov);
- “SR Audit Solutions” MMC (direktor – Səftər Vəlizadə);
- “TNM Audit” MMC (direktor – Nəcəf Talıbov);
- “Xəzər-Audit 2020” MMC (direktor – Adıgözəl Musayev);
- sərbəst auditor – Altay Cəfərov;
- sərbəst auditor – Elnur İbrahimov;
- sərbəst auditor – Elvin Əliyev;
- sərbəst auditor – Hafiz Əhmədov.

5. Auditorlar Palatasında 2023-cü il ərzində keçirilmiş tədbirlərin ümumi sayının 30%-dən azında iştirak edən və heç birində iştirak etməyən auditor təşkilatlarının və sərbəst auditorların adları Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin (3, 4, 5 və 6 saylı siyahılar əlavə olunur).

6. Auditorlar Palatasında 2023-cü il ərzində təşkil olunan “dəyirmi masa”ların hər birində iştirak edən 5 nəfər “dəyirmi masa” üzvünə (“TNM Audit” MMC-nin direktor-auditoru N.Talıbov, sərbəst auditorlar E.İbrahimov, N.Axundov, V.Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov) təşəkkür elan edilsin.

7. Auditorlar Palatasının Aparatına (Q.Bayramov) tapşırılsın ki, iki həftə müddətində Auditorlar Palatasında 2023-cü il ərzində təşkil olunan “dəyirmi masa”ların işində zəif iştirak edən və ümumilikdə iştirak etməyən Palata üzvlərinin və əməkdaşlarının “dəyirmi masa”nın üzvlüyündən xaric olunması və həmin tərkibə yeni namizədlərin əlavə olunmasına dair təkliflərini təqdim etsin.

8. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov), İnsan resursları üzrə menecerə (N.Abdullayeva) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərindən irəli gələn məsələləri həll etsinlər.

9. Bu qərarın və siyahıların mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**